**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№382/2** **21 noyabr 2025-ci il**

**Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinə dair monitorinq sistemi barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.5-ci “Auditorlar tərəfindən etik qaydalara əməl edilməsi ilə bağlı monitorinq sisteminin yaradılması və tətbiqi” bəndinin və Palata Şurasının 2025-ci il 13 avqust tarixli 378/6 nömrəli və 2025-ci il 9 oktyabr tarixli 380/3 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən yenidən işlənib hazırlanmış monitorinq sisteminin layihəsini nəzərdən keçirərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinə dair monitorinq sistemi” təsdiq edilsin (əlavə olunur).
2. “Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinə dair monitorinq sistemi” 2026-cı il 05 yanvar tarixindən tətbiq edilsin.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) və Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, aşağıda qeyd olunan sənədlərin hazırlanmasını 2026-cı ilin I rübü ərzində təmin etsinlər:

a) “Auditorun etik davranışına dair nümunəvi daxili qayda”nın layihəsini;

b) “Auditorun etik risklərin qiymətləndirilməsinə dair nümunəvi daxili hesabat”ın layihəsini;

c) “Auditorların peşəkar müstəqilliyi barədə bəyanat”ın layihəsini.

4. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli, A.Bayramova) tapşırılsın ki:

a) “Auditorların etik davranışı üzrə monitorinq proqramı”nın hazırlanması 2026-cı ilin I rübü ərzində təmin edilsin;

b) auditorlar tərəfindən etik qaydalara əməl edilməsi ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi təmin edilsin (plan qrafikə əsasən il ərzində);

c) “Etik davranışın qaydalarına dair” bukletin layihəsinin 2026-cı ilin I yarımilində hazırlanması təmin edilsin;

d) bu monitorinq sistemindən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.

5. Aparatın rəhbərinə (Q.Bayramov) tapşırılsın ki, bu qərardan irəli gələn tədbirlərin Auditorlar Palatasının 2026-cı il üzrə iş planına daxil edilməsi təmin edilsin.
6. “Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinə dair monitorinq sistemi” barədə layihəyə verdikləri dəyərli təklif və tövsiyələrə görə rəyçilərə (sərbəst auditorlar Üzeyir Fətiyev, Şamxal Kərimov) təşəkkür elan edilsin.
7. Bu qərarın və monitorinq sisteminin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**